*Kəlmələrin qoruyacaq*
*Şair, sənin o zirvəni*
*Fikirlərin ucaldacaq,*
*Musa Yaqub daim səni.*

Zinyət Şərif qızı Tahirli,
Qəbələ yazarları İB-nın üzvü



**Musa Yaqub zirvəsi**

*Yaxşı şeir yaza bilmək*
*İlahinin hədiyyəsi,*
*Yüksək uca zirvədədir,*
*Musa Yaqub səviyyəsi.*

*Nə deyim ki, layiq olsun*
*Heç olmasa bir misrana?*
*Misraların sığal çəkir*
*Oxuyanda hər insanı.*

*İstərdim mən sənin kimi*
*Dərin, gözəl şeir yazım.*
*Şeir adlı aləmində*
*Razıyam ki, gəzib azım.*

*Gül ətirli misralardan,*
*Soruşam mən öz yolumu,*
*Gözlərinin ətri tutsun,*
*Ətrafımı, sağ, solumu.*

*Musa Yaqub zirvəsinə,*
*Çatmaq üçün yarışdayıq*
*O zirvəyə çatmaq olmur,*
*Çox çətindir, sərt qışdayıq.*

Paralel.- 2023- cü il.- 30 mart.- S. 13.